# Nitq inkişafının linqvistik əsasları

**Nuranə İsmailova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** nismayilova1010@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos.T.Ç. Şükürlü,
p.ü.f.d., dos.G.V. Sultanova

**Açar sözlər:** nitq, monoloji, dioloji, inkişaf, şagird
**Ключевые слова:** речь, монология, диология, развитие, студент
**Key words:** speech, monology, diology, development, student

Dil, nəzəri dilçilik, o cümlədən müasir Azərbaycan dilinin nəzəri bazası, Azərbaycan dilinə dair fundamental elmi tədqiqatlar, dilin elmi səviyyədə öyrənilməsi, ədəbi dil normaları ümumi nitq məfhumundan kənarda deyildir və nitqin elmi əsasını təşkil edir. Azərbaycan dili nitq inkişafı üzrə aparılan işlərin yüksək nəticəsi kimi də dəyərləndirilməlidir. Dil bütöv və daim təkmilləşməkdə olan hadisədir. Azərbaycan dilində zəngin lüğət ehtiyatına malik olmadan, qrammatik və semantik cəhətdən sözlərin təbiətinə bələd olmadan, sözləri cümlədə yeri –yerində işlətməyi və rabitəli mətnə daxil etməyi bacarmadan fikrin olduğu kimi ifadəsi mümkün deyildir.

Nitqin inkişafı əsasən kiçik yaşlarından formalaşmağa başlayır. Nitq inkişafı dedikdə şagirdlərin xarici aləmi düzgün qavramaları, onu qrammatik və üslubi cəhətdən savadlı cümlələrlə ifadə etmələri nəzərdə tutulur. Bu zaman şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, dəqiqləşdirilməsi, fəallaşdırılması, təmizliyi, düzgün tələffüz və cümlə üzrə iş prosesində qazandığı vərdişlərdən istifadə olunur. Uşaqların nitqinin normal inkişaf etməsi onların ədəbi dilin normalarına nə dərəcədə yiyələnməsindən çox asılıdır. Bu dövrdə başlıca ünsiyyət forması şifahi nitq olduğundan onun təmizliyinə, düzgünlüyünə, vahid normalar əsasında qurulmasına fikir verilməlidir.

Şagirdlərin nitqinin inkişaf etdirilməsində lüğət üzrə işlər xüsusi yer tutur. Söz dilin əsas leksik vahididir. Sözü xarakterizə edərkən onun leksik, qrammatik, fonetik xüsusiyyətlərini-fonetik ifadəliliyini, semantik valentliyini, vurğusuz və ya vurğulu olmasını, leksik-qrammatik münasibətdə olmasını, bütövlüyünü, nitq axınından ayrılmanı, cümlə içərisində işlənməsini nəzərə almaq lazımdır. Sözlər hər zaman şagirdin idrak obyekti olmaqla, bir tərəfdən leksik, digər tərəfdən qrammatik mənaya malikdir. Sözün leksik mənası dedikdə onun əşya və hadisələri ifadə etmək qabiliyyəti, sözün maddi mənası obyektiv varlığın müxtəlif hadisələri ilə münasibəti nəzərdə tutulur. Qrammatik məna isə hər cür konkretlikdən məhrum olan ümumiləşmiş mənadır. [1, s. 49]

Şagirdlərin aşağı siniflərdə lüğət üzrə bilik və bacarıqlara yiyələnmələri labüddür. Ətrafdakılarla ünsiyyət, oxu, müşahidələr və praktik işlər şagirdlərin lüğət ehtiyatını yeni sözlər və terminlərlə zənginləşdirir. Bu prosesdə onların nitqi həm kəmiyyət, həm də keyfiyyətcə zənginləşir. Hər bir söz get-gedə yeni məna kəsb edir.

Lüğət ehtiyatının zənginləşdirilməsində öyrənilən səs və hərfə dair verilmiş söz və həmin səslərin işləndiyi sözləri əks etdirən şəkillərin (nal, banan, ananas, durna, meymun, tələ, kəmər, zənbil, lələk, ilbiz, çəyirtkə, cırcırama, fincan, stul, zəng, tava, göbələk, bəbir, yaba, bel, çətir, raket və s.) mühüm əhəmiyyəti vardır. Dərslikdəki şəkillər sözün mənasının

asanlıqla anlaşılmasına şərait yaradır. Bu sözlərin hamısını az müddətdə şagirdlərin fəal lüğətinə daxil etmək mümkün olmasa da, yeri gəldikcə onların bu sözlərdən istifadə etmələrinə nail olmaq lazımdır. [2, s. 222]

Nitq inkişafı prosesində şifahi və yazılı nitqin də böyük əhəmiyyəti vardır. Şifahi nitq yazılı nitqdən bir çox cəhətinə görə fəqlənir. İlk növbədə bu nitq yazılı nitqdən xeyli qədimdir. Hələ yazı əmələ gəlməzdən əvvəl insanlar bu nitq formasından geninə-boluna istifadə etmişlər. İkincisi şifahi nitq jest, mimika və intonasiya ilə müşayiət olunur. Şifahi nitqin əsasını obrazlılıq təşkil edir. Problemin tədqiqi bizi "obrazlılıq nədir?" sualına cavab vermək vəzifəsilə qarşılaşdırdı. Alimlərin bir qrupu onu bədii üsluba aid edirlər. Onların fikrincə, obrazlı deyim seçmə nitq vahidlərinin sərrast düzümündən yaranır. Möcüzəli ifadələr, sehrli sözlər toplusudur.

Bizi əhatə edən əşyaları hamımız görürük. Çox vaxt hadisələrin iştirakçısı oluruq. Bu barədə hamı fikir söyləyə bilər. Obrazlı nitqə yiyələnməmiş şəxslər fikrini quru, sxematik halda ifadə edirlər. Bu o qədər də diqqəti cəlb etmir. Obrazlı nitq sahiblərində faktlar, hadisələr özgə qiyafə alır. Başqa sözlə içindəki gizli ruhi qüvvənin insan şüurunda parlaqlıq, əlvan lövhə yaradır. Təlimin mühüm vəzifələrindən biri şagirdlərdə fikrini obrazlı ifadə etməyə maraq oyatmaqdan ibarət olmalıdır. Bu şagirdlərdə müəyyən motiv, sinifdə xüsusi situasiya yaradır.

Obrazlı nitqin inkişafı ilə əlaqədar aparılan anket sorğusu, şagirdlərin şifahi və yazılı inşaları, ifadələri üzərindəki müşahidələr bizə bu istiqamətdə daha geniş ölçüdə və səmərəli işlər aparmağa imkan verir. Məlum oldu ki, şagirdlərin obrazlı nitqinin inkişafı ilə əlaqədar məktəblərimizdə bir sıra nöqsanlara yol verilir. Belə ki, müəllimlərin bəziləri obrazlı nitqin mahiyyətini, ona verilən tələbləri aydın təsəvvür eləmirlər. Onlar çox zaman mətnləri (şeir və hekayələri) yalnız oxutdurmaqla, onun məzmununu danışdırmaqla öz işlərini bitmiş hesab edirlər. Şagirdlərin lüğət ehtiyatını söz birləşmələri ilə zənginləşdirmirlər. İkinci qrup müəllimlər tədris materialının ifadəli oxunmasına, məzmunun şüurlu mənimsənilməsinə o qədər də diqqət yetirmirlər. Heç şübhəsiz ki, belə olduğu halda mətnlərdəki obrazlı ifadələr, cümlələr üzərində zəruri işlərin aparılmasından söhbət gedə bilməz. Dərslərdə mətnlərin oxutdurulması, arabir şagirdlərə sualların verilməsi, şəkillərin təsvir edilməsi şagirdlərin obrazlı nitqinin inkişafını təmin edə bilməz.

Obrazlı nitq prosesinin məzmunu monoloji və dioloji olur. Onlar xarici nitqdə baş verir. Bu heç də o demək deyildir ki, burada daxili nitq iştirak etmir. Belə düşünmək ciddi səhvdir. Daxili nitq xarici nitq üçün ilkin mərhələdir. [3, s. 36]

Dioloji nitq: Bu nitq fəaliyyətinin bir forması olaraq müəyyən situasiyada iki və daha artıq şəxs arasında bir-birini izləyən, növbələşən danışıqdır. Burada danışan, daha doğrusu, fikri ifadə edən şəxs əvvəlcə daxilən öz-özünə düşünür, sonra isə xarici nitqdə keçir, yəni demək istədiyini sözlə ifadə edir. Fikri qəbul edən (dinləyən, eşidən) isə əvvəlcə dinləyir, sonra düşünür, daxili nitqdən xarici nitqə keçərək müsahibinə müvafiq cavab verir. Burada monoloji nitqdən fərqli olaraq söhbətə öncədən hazırlıq görülmür. Bu səbəbdən dioloji nitqdə tərəflər daha fəal olurlar.

Nitqin dioloji forması *mükalimə* də adlanır. Danışıq nitqi üçün səciyyəvidir. Bu yığcam və ixtisar olunmuş nitqdir. Orada ifadələr bir qədər qısa, sintaktik quruluşlar sadədir. Yarımçıq cümlələrdən daha çox istifadə olunur. Nitqin bu növündə digər vasitələrdən də - jest, mimika, əl-qol hərəkətləri və s. istifadə olunur. [3, s. 72]

Monoloji nitq: Monoloq latın sözü olub mənası bir şəxsin nitqi deməkdir. O, danışanın hər bir mövzu haqqında fikirlərini geniş, müfəssəl və yaxud yığcam, müxtəsər şəkildə rabitəli və

məntiqi ardıcıllıqla ifadə olunmasıdır. Monoloq bir adam tərəfindən söylənir, çoxluq tərəfindən dinlənilir.

Monoloqda işlədilən cümlələr eyni planlı və bərabər hüquqlu olur. Onlardan biri digərini izah edir, tamamlayır. Bu cümlələr vahid məqsədə xidmət edən qollardır. Qollardan biri ixtisar edildikdə, atıldıqda fikir təhrif olunur. Diaoloqdan fərqli olaraq burada cümlələrin sayı yox, nitq uzun müddət davam edir, bitkin fikir ifadə olunur. [4, s. 371]

Uşaqların monoloji nitqinin xüsusiyyətlərini dəqiq müəyyənləşdirmək, onları kəmiyyət və keyfiyyətcə araşdıraraq qeydə almaq çox çətindir. Onların nitqinin surətlə dəyişkənliyi buna imkan vermir. Araşdırmalar və lent yazılarının təhlili göstərdi ki, altıyaşlıların hər birinin öz nitqi, öz aləmi var. Ona görə də ibtidai siniflərdə monoloji şifahi nitqin inkişafı üzərində işin sistemli və məzmunlu təşkili üçün əvvəl onların I sinifdə dərs ilinin başlanğıcında monoloji nitqin xüsusiyyətləri dəqiq öyrənilməlidir. Bu məqsədlə respublikanın müxtəlif zonalarında (Bakı, Gəncə, Şəmkir, Tovuz, Lənkəran, Ordubad, Zaqatala, Qax, Ucar, Quba və s.) şəhər və kənd məktəblərinin I siniflərində tədris ilinin əvvəlində 730 uşaq nitqi üzərində tədqiqat aparıldı. Müəllimlərə aparılacaq işin sistemi ilə bağlı məsləhətlər verildi. Uşaqların yaş səviyyəsi, fərdi və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla əyani vasitələr hazırlandı. Əyani vasitələrin (şəkillərin), müşahidə obyektlərinin çətinlik dərəcəsi və coğrafi şərait həm şəhər həm də kənd uşaqları üçün təxminən eyni olmuşdur. Təhlil prosesində monoloji nitqin xüsusiyyətləri ümumiləşdirilmişdir. Bu araşdırmalar altıyaşlıların monoloji nitqinin xüsusiyyətlərini aşağıdakı kimi ümumiləşdirməyə imkan verdi:

— tqdə daha çox dialektlərin işlənməsi;
— nitqdə tufeyli söz və ifadələrin işlənməsi;
— sözləri sinonimləri ilə daha dəqiq mənada əvəz edə bilməmələri;
— sözlərin məcazi mənalarından istifadə edə bilməmələri və s.

Altıyaşlıların monoloji nitqinin dəqiq öyrənilməsi birinci sinifdə bu sahədə aparılacaq işlərin əsasını təşkil edir. Ona görə də bu xüsusiyyətlər nitq inkişafı üzrə işlər aparılarkən mütləq nəzərə alınmalıdır. [4, s. 383]

Beləliklə, son olaraq qeyd etmək istəyirəm ki, ibtidai siniflərdə şagirdlərin nitqinin inkişaf etdirilməsi üzrə işlər apararkən dilin təsvir və ifadə vasitələri haqqında elmi müddəalar nəzərə alınmalıdır. Fikrin məntiqi ardıcıllıqla izahına, bu sahədəki işlərin pedaqoji və psixoloji xüsusiyyətlərinə mütləq diqqət yetirilməlidir.

**Məqalənin aktuallığı.** Nitqin inkişafı aktual məsələlərdən biridir. Təkcə aşağı siniflərdə deyil hal–hazırki dövrümüzdə də nitqin inkişafına dair bir çox araşdırmalar, tədqiqatlar aparılır. Düzgün danışıq, düzgün nitq mədəniyyətinin formalaşdırılması üçün bir sıra metodlar tətbiq olunur.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, məqalədə nitqin növlərindən əlavə, ibtidai siniflərdə onların lüğət ehtiyatlarının inkişafına, düzgün oxunun rəvanlığına kömək olacaq nümunələr də göstərilib.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas, orta ümumitəhsil məktəb müəllimləri, şagirdlər, tələbələr, magistrantlar eləcə də tədqiqatçılar da istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Nabat Cəfərova. Nitq inkişafı üzrə işin metodikası. Bakı, 2018.
2. Nabat Cəfərova. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Dərslik (1-ci hissə). Bakı, 2016.

3. A.N.Rəhimov.Şagirdlərin obrazlı nitqinin inkişafı. Bakı, 2007.
4. Ağarəhim Rəhimov. Ana dilinin tədrisi metodikası. Bakı, 1997.

**Н. Исмаилова**

## Лингвистические основы речевого развития

## Резюме

Развитие нашей речи происходит с малых лет и до наших времен. У школьников в основном правильное чтение и разговор является причиной развития словарного запаса и свободного выражения своих мыслей. Существует несколько видов речи. В данный момент мы пользуясь этими видами еще лучше развиваем свою речь.

**N. İsmayılova**

## Linguistic bases of speech development

## Summary

The development of our speech continues to grow from the youngest day till nowadays. Essentially proper reading, speaking, enrichment of recourses in students leads us development of our vocabulary and express our speech correctly. There are many types of speech. Currently, by using these species we make our speech even more noticeable.

**Redaksiyaya daxil olub:** 17.05.2019